**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**XƏYALƏ ZƏRRAB QIZI ƏFƏNDİYEVA**

# SEYRAN SƏXAVƏTİN BƏDİİ NƏSRİNDƏ SOSİAL – PSİXOLOJİ VƏ MƏNƏVİ – ƏXLAQİ AXTARIŞLAR

**5716.01 ─ "Azərbaycan ədəbiyyatı"**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI ─ 2016**

Dissertasiya Azərbaycan Dillər Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: *filologiya üzrə elmlər doktoru, professor*
**Tofiq Hüseyn oğlu Hüseynov**

**Rəsmi opponentlər:** *filologiya üzrə elmlər doktoru, professor*
**Asif Heydər oğlu Rüstəmli**

*filologiya üzrə fəlsəfə doktoru, dosent*
**Əhməd Sami el-Aydi**

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı tarixi kafedrası**

Müdafiə «_25___» ___11________ 2016-cı il saat «___»-da Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2016-cı ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının**
**elmi katibi, filologiya üzrə**
**elmlər doktoru, professor:** **T.H.HÜSEYNOV**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir Azərbaycan nəsri zəngin Azərbaycan ədəbiyyatı və dünya ədəbiyyatının ən mütərəqqi ənənələri ilə formalaşıb inkişaf etmiş, fəal mənəvi-sosial qüvvəyə çevrilmişdir. Bu nəsrin Yusif Vəzir Çəmənzəminli, İsmayıl Şıxlı, Çingiz Hüseynov, İsa Muğanna, Yusif Səmədoğlu, Sabir Əhmədli, Anar, Elçin, Vaqif Sultanlı, Saday Budaqlı, Afaq Məsud, Elçin Hüseynbəyli və s. güclü yaradıcıları var ki, əsərləri ölkə hüdudlarından kənarda da xüsusi diqqətə səbəb olmuşdur. Belə sənətkarlardan biri də istedadlı yazıçı Seyran Səxavətdir. İstedadının orijinallığı, fərqli yazı manerası, əsərlərində insan həyatının, məişətinin, düşüncəsinin köklü problemlərinə müraciət etməsi, yaradıcılığına məxsus dərin humanizm, fəlsəfilik, psixoloji dərinlik geniş oxucu kütləsinin və ədəbi-elmi ictimaiyyətin diqqətini daim özünə cəlb etmişdir. Onun yaradıcılığı çoxjanrlı və çoxşaxəlidir. Seyran Səxavət şair, nasir, publisist və dramaturq kimi geniş auditoriyası olan bir sənətkardır. Bədii nəsr Seyran Səxavət yaradıcılığının mühüm bir sahəsidir.

Seyran Səxavətin bədii nəsrini müasir ədəbi tənqid daim diqqətlə izləmişdir. Yazıçının bədii nəsri nikbin ruhu, incə lirizmi, tragik momentləri, komik situasiyaları ilə müasir nəsrin polifoniyasında özünəməxsus yer tutur. Ədib zəngin yumor və satira vasitələrindən ustalıqla istifadə etməklə sosial-əxlaqi problemlərin ciddi islahına çalışmış, hadisə və xarakterlərin təbiətindəki komizmi açıb göstərmişdir. S.Səxavət fikrin rəmzi-metaforik ifadəsi, məcazların orijinallığı və zənginliyi, hadisə və xarakterlərin bədii-psixoloji təhlili, sosial və fərdi münasibətlərin möhkəm bağlılığı, real həyati ziddiyyətlərin qabarıq ifadəsi, təhkiyə və dialoqların məna genişliyi, bədii siqləti, yazıçı mövqeyinin aydınlığı, lirik və epik təsvirin komik və tragik yükü, yazıçının fərdi üslubunun əsas keyfiyyətlərindəndir. Seyran Səxavət hadisə və xarakterlərin bədii-psixoloji təhlilinə xüsusi diqqət yetirmiş, hər bir obrazın mənəvi dünyasına, onların mənəvi-psixoloji aləminə həssaslıqla varmış və insan həyatının arzu və istəklərini, məhəbbət və nifrətini,onun antitezasını üzə çıxarmışdır. Dərin və əhatəli psixologizm Seyran Səxavət təhkiyəsinin qidasıdır. S.Səxavətin bədii nəsrində XX və XXI əsr dünyasının rəngarəng təzadları, cəmiyyətin sosial-siyasi və mənəvi aşınmaları, hər cür insan tipinin bədii ifadəsi aydın görünür.

Sənətkar həyatın geniş sosial mənzərəsini deyil, onun insan mənəviyyatında doğurduğu konkret, retrospektiv cəhətlərini peşəkarlıqla qələmə almışdır.

S.Səxavət nəsr və dramaturgiyanın əlvan janrlarında mövcud cəmiyyətin tipik mövzularını, problemlərini, milli və bəşəri məsələlərini , mürəkkəb insan xarakterlərini özəl boyalarla əks etdirmiş və yazıçı istedadının poetik sirlərini canlandırmışdır.

Sənətkarın zəngin təxəyyülü narahat dünyamızın sosial-siyasi problemlərini, milli həyatımızın mənəvi-psixoloji aspektlərini açıb göstərməyə kifayət etmişdir.

Yazıçının "Qızıl teşt", "Daş evlər", "Dar köynək", "Palıd toxumu", "Nekroloq", "Yəhudi əlifbası", "Bəhanə", "Qaçhaqaç" və başqa əsərlərində mənəvi cəhətdən şikəst insanların və bunları doğuran obyektiv və subyektiv səbəblərin mahiyyəti, cəmiyyətdəki sosial haqsızlıq və ədalətsizliklərin ailələrə, talelərə gətirdiyi psixoloji-fəci ağrılar əks olunmuşdur.

S.Səxavət psixologizminin mahiyyəti müxtəlif obrazların düşdüyü vəziyyət, təsvir olunan hadisələrin təzadlarından, habelə, cəmiyyətin psixologiyasından doğur. S.Səxavətin psixologizmi doğma ana dili, adət-ənənə və sosial gerçəkliyin öz təbiəti ilə çulğaşır. Sənətkarın psixologizmini güclü milli şüur yanğısı, tarix, mənəvi yaddaş və heysiyyat izləyir.

S.Səxavət mənsub olduğu xalqın, dövlətin əxlaq və mənəviyyatını həmişə sağlam, ruhlu, köklü, rişəli görmək istəyir. Bu baxımdan ədibin bədii yaradıcılığının mənəvi-əxlaqi, sosial-siyasi və tərbiyəvi əhəmiyyəti çox güclüdür.

S.Səxavətin ədəbi-bədii dili şirəli və axıcı, yazıçı təxəyyülü çox zəngin və həssas, tənqidi realizmi dərin və əhatəli, üslub vasitələri əlvan və yetərlidir.

Sənətkarın qiymətli bədii əsərləri hazırda çox oxunur. Ədəbi-ictimai fikir həm də onun bədii nəsr və dramaturgiyasında estetik reallıq tapır. Bu baxımdan S.Səxavətin əsərləri ədəbi tənqidin diqqətini güclü şəkildə özünə cəlb etməkdədir. Yazıçının yaradıcılığı əsasında qiymətli məqalələr yazılmış, onun ədəbi irsinə elmi-nəzəri və estetik münasibət güclənmişdir.

S.Səxavətin bədii yaradıcılığı milli-tarixi və çağdaş şüur problemləri ilə bağlı olan, bu bədii keyfiyyətin fərd, ailə, cəmiyyət və dünya–insan–zaman boyunca yayımlandığı və ədəbi prosesə təsir göstərdiyi orijinal yaradıcılıqdır. Bu baxımdan çağdaş həyat və cəmiyyət quruculuğunda fəal iştirak edən bədii söz ustalarının yaradıcılığının mənəvi-əxlaqi və sosial-psixoloji aspektlərdən tədqiqi müasir ədəbiyyatşünaslığın aktual problemlərindəndir. Bu aktuallıq ilk növbədə onunla izah edilir ki, ədəbi-

bədii təfəkkür və onun simaları cəmiyyətin həyatında baş verən dəyişiklikləri obrazlı şəkildə əks etdirir. Seyran Səxavətin yaradıcılığındakı sosial-psixoloji və mənəvi-etik problemlərin bədii inikası indiyədək əhatəli araşdırma obyekti olmadığından bu mövzuda tədqiqat işinin yazılması daha da aktuallaşır. Bu dissertasiya işi tanınmış, istedadlı yazıçı Seyran Səxavətin bədii nəsrinin tədqiqinə həsr edilmiş uğurlu təşəbbüsdür.

**Tədqiqatın məqsəd və vəzifələri.** Müasir bədii nəsrdə sosial-psixoloji və mənəvi-əxlaqi problemlərin bədii inikası bir üslubi təmayül deyil, müasir ədəbi prosesə aid olan harmonik bədii zərurətdir. Müasir bədii nəsr demək olar ki, bütün janrlarında sosial-mənəvi həyatın bütün sferalarına sirayət edir və ədəbiyyat yeni bədii keyfiyyət dəyişikliyi qazanır. Bu missiyada tanınmış nasir Seyran Səxavət yaradıcılığı xüsusilə diqqəti cəlb edir. 1960-cı illərdə ədəbiyyata gəlmiş müəllifin yaradıcılığı janr baxımından rəngarəng olduğu kimi, problematika, mövzu və sosial mündəricə baxımından da oxucu marağını təmin edir.

Tanınmış yazıçının bədii nəsrinin verdiyi imkanlar daxilində milli ədəbiyyatda baş verən sosial-psixoloji və mənəvi-etik problemlərin öyrənilməsi məqsədi mövzunun elmi-nəzəri və estetik həlli baxımından aşağıdakı vəzifələrin həyata keçirilməsini zəruri edir:

- Seyran Səxavətin ədəbiyyata qədəm qoyduğu illərdə yaradıcılıq axtarışlarının istiqamət və meyillərini, səciyyəsini müəyyənləşdirmək, ilk ədəbi axtarışlarını və bədii tapıntılarını izah və şərh etmək;
- Seyran Səxavətin yaradıcılıq özəlliklərini, onun çağdaş Azərbaycan ədəbiyyatındakı yerini müəyyənləşdirmək, mənsub olduğu ədəbi nəslin nümayəndələrinin yaradıcılığındakı üslub fərdilikləri ilə müqayisədə Seyran Səxavət nəsrinin özünəməxsus xüsusiyyətlərini aşkarlamaq;
- Ədəbi-elmi ictimaiyyətin, tənqid və ədəbiyyatşünaslığın Seyran Səxavət yaradıcılığına münasibətini sistemli şəkildə elmi-nəzəri təhlilə cəlb etmək;
- Dünya və Azərbaycan ədəbiyyatı kontekstində yazıçının ortaya qoyduğu problemləri bədii təhlilin əsas obyektinə çevirmək, müqayisəli təhlillər aparmaqla müvafiq nəticələr çıxarmaq;
- Seyran Səxavət yaradıcılığında milli və bəşəri problemlərin bədii inikas özəlliklərini səciyyələndirmək;
- Bədii nəsrdə Seyran Səxavət yaradıcılığı kontekstində şəxsiyyət, zaman, mühit probleminin qoyuluşu və onun bədii inikası ilə bağlı problemlərin həllini vermək;

- Seyran Səxavət əsərlərindəki mühitə uyğunlaşa bilməyən, ona qarşı etirazını bildirən, mühitlə daim mübarizədə olan insanların iç dünyasını - düşünən və düşündürən qəhrəmanları ayrıca təhlil etmək;

- Ədibin əsərlərində insan və cəmiyyət, insan, zaman və dünya problemlərinin bədii-fəlsəfi inikas özəlliklərini müəyyənləşdirib dəyərləndirmək;

- Gerçəkliyin şərti-metaforik planda bədii əksinin Seyran Səxavət yaradıcılığı kontekstində həlli yollarını araşdırmaq;

- Seyran Səxavətin bütövlükdə nəsr yaradıcılığını - hekayə, povest, romanlarını, ədəbi-bədii və fəlsəfi-estetik məqalələrini təhlil etmək, çağdaş Azərbaycan ədəbiyyatında və ölkə xaricində qazandığı yüksək mövqeyi ortaya qoymaq tədqiqatımızın əsas vəzifələrindəndir.

Bütün sadalanan problemlərlə yanaşı, mövzunun araşdırılması prosesində ortaya çıxmış bir sıra məsələlər də dissertasiyada elmi-nəzəri şərhini tapmışdır.

**Mövzunun işlənmə səviyyəsi.** XX əsrin 60-70-ci illərində ədəbi prosesdə yeni nəfəs – canlanma müşahidə olunmağa başladı. Ədəbi prosesdə aydın görünən bu yeni nəsil elə ilk addımlarından ədəbi tənqid və elmi-filoloji fikrin diqqətini özünə cəlb etdi. “Yeni ədəbiyyat”, “yeni nəsr”, “yeni şeir” istilahı məhz bu nəslin nümayəndələrinin –İsa Muğanna, Yusif Səmədoğlu, Sabir Əhmədli, Çingiz Hüseynov, Anar, Elçin, Xəlil Rza Ulutürk, Nəriman Həsənzadə, Fikrət Sadıq, Ramiz Rövşən, Fikrət Qoca, Seyran Səxavət və başqalarının adları ilə bağlı oldu.

1960-70-ci illər Azərbaycan ədəbi-nəzəri fikir tarixində yeni nəsrin predmeti, yönü və qayəsi ilə bağlı çoxlu ədəbi-tənqidi və elmi-nəzəri məqalələr yazılmış, bədii nəsr müxtəlif aspektlərdən araşdırılmışdır. Məmməd Cəfər, Məmməd Arif, Əziz Mirəhmədov, Qasım Qasımzadə, Bəkir Nəbiyev, Qulu Xəlilov, Məsud Əlioğlu, Pənah Xəlilov, Əkbər Ağayev, Kamran Məmmədov və başqaları[1] 1960-70-ci illər nəsrinin mövzu-problematika, forma və məzmun məsələlərinə toxunmuş, “yeni nəsr” məsələsini müxtəlif aspektlərdən izah etməyə çalışmışlar.

Bu dövrdə yazılan əsərlərdəki yeniliklər çağdaş Azərbaycan nəsrinin səviyyə göstəricisidir. Xalq yazıçısı Elçin 1981-ci ildə ədəbi-tənqidi qeydlərində məsələyə belə münasibət bildirmişdi: “... Bu böyük problemlərin əsasını müasir insan və müasir həyat təşkil edir: müasir insanın müasir həyata

---

[1]Nəbiyev Bəkir. Müasirlik və sənətkarlıq uğrunda. Bakı, Azərnəşr, 1966, 129s.; Xəlilov Pənah. Nəsrimizin üfüqləri. Bakı, Yazıçı, 1982, 182s; Əlioğlu Məsud. Nəsrimiz ətrafında mübahisələr, “Azərbaycan” jurnalı, 1964, №7, 181 s; Talıbzadə Kamal. Tənqid və tənqidçilər, Bakı: Yazıçı 1989, 490 s; Xəlilov Qulu. Eybəcərlik üçün bağlanan qapılar, “Ədəbiyyat və incəsənət” qəzeti, 16 iyul 1982

münasibəti və bu münasibət baxımından onun həyatdakı fəaliyyəti. Bu müasir insan mücərrəd bir varlıq deyil, "portretlər qalereyasına" mənsub inkoqnito deyil, yüksək intellektli azərbaycanlıdır – mənfi və yaxud müsbət sürətliliyindən asılı olmayaraq. Onun fəaliyyəti və maraq dairəsi genişdir, o, təkcə ixtisası ilə əlaqədar məsələləri yox, vətən və xalq qarşısında duran problemləri də görür və bu problemlər barədə düşünür, çünki xalqın və vətənin buna ehtiyacı var; onun fəaliyyəti də bu problemlərlə bağlıdır."[1]

Bu baxımdan yeni nəsrin istedadlı nümayəndələrindən olan Seyran Səxavətin bədii yaradıcılığı ədəbi-tənqidin diqqət mərkəzində olmuşdur. Yazıçının bədii irsi ilə əlaqədar Pənah Xəlilov, Qulu Xəlilov, Xəlil Rza Ulutürk, Məmməd Araz, Nadir Cabbarlı, Musa Yaqub, Ramiz Rövşən, Məsiağa Məmmədli, Rəhim Əliyev, Vaqif Bəhmənli, Vaqif Yusifli, Hidayət Orucov, Sabir Rüstəmxanlı və başqaları məqalələr yazmış, Seyran Səxavətin yaradıcılığını müxtəlif aspektlərdən təhlil etmişlər. Lakin ədibin nəsr yaradıcılığı indiyə qədər sistemli şəkildə tədqiqata cəlb edilməmişdir. Halbuki yazıçının zəngin bədii yaradıcılığı elmi tədqiqat üçün geniş material verir. Təqdim edilən dissertasiya işi bu baxımdan ilk təşəbbüsdür.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini Seyran Səxavətin nəsr yaradıcılığı təşkil edir.

**Tədqiqatın elmi metodologiyasını** tipoloji-müqayisəli təhlil metodu təşkil edir. Dissertasiyada Seyran Səxavət nəsrində sosial-psixoloji və mənəvi-etik problemlərin bədii inikasını aydınlaşdırarkən Azərbaycan və dünya ədəbiyyatşünaslığının filoloji-nəzəri materiallarından da faydalanmışıq.

**Tədqiqatın elmi yeniliyi.** Seyran Səxavətin elmi yaradıcılığı çağdaş Azərbaycan nəsrinin böyük ədəbi hadisələrindən biridir. Bu nəsr klassik nəsrimizlə çağdaş nəsrimiz arasında etibarlı körpüdür. S.Səxavət yaradıcılığı mənəvi-əxlaqi və sosial-psixoloji dəyərlər baxımından tədqiqata cəlb olunmuşdur. Dərin humanizm, fəlsəfi-psixoloji təhlil genişliyi, sərt realizm S.Səxavət yaradıcılığının orjinallığını, fərdi yazı manerasını, nəsrinin əlvan obrazlarını, şərti-metaforik ifadə özünəməxsusluğunu şərtləndirmişdir.

S.Səxavət bədii dilimizin gözəlliyi və zənginliyindən bacarıqla istifadə etmişdir. O, milli və ümumbəşəri ideyalara söykənən hekayə, povest və romanların müəllifidir. Bu əsərlərdə S.Səxavətin ciddi yazıçı mövqeyi, həssas müşahidəsi və bədii həqiqətin yeni düşüncə hüdudlarında ifadəsi, mürəkkəb insan xarakterləri, cəmiyyət və insanın təzadlı aləmi, psixoloji-fəlsəfi dərketmə S.Səxavət nəsrinin səciyyəvi xüsusiyyətləri kimi diqqəti cəlb edir.

---

[1] Əsədullayev Seyfulla. Müasir nəsrin inkişaf meyilləri. Bakı: Azərbaycan, 1971, s.84

Biz tədqiqatımızda sosial reallığa S.Səxavətin mənəvi-əxlaqi və sosial-fəlsəfi, habelə, psixoloji-estetik baxışlarını üzə çıxarmağa çalışmışıq. Kommunist rejimi imkan verməmişdir ki, S.Səxavətin sosial-psixoloji problemləri və onların bədii ifadəsi obyektiv surətdə araşdırılsın. Dövlət müstəqilliyindən sonra daha çox zəmin yaranmışdır ki, S.Səxavət yaradıcılığına obyektiv qiymət verilsin. Çalışmışıq ki, problemə elmi-nəzəri və ədəbi-estetik prinsiplər əsasında yanaşsın. Yəni işin elmi yeniliyi həm də ondadır ki, S.Səxavət yaradıcılığı ilk dəfə milli özünüdərk qaynaqları baxımından tədqiqata cəlb edilmişdir.

Tədqiqatın elmi yeniliyi digər cəhətdən onunla səciyyəvidir ki, sənətkarın milli ideyalara gəlişi, mövcud cəmiyyətin naqisliklərinin göstərilməsi və yeni bədii təfəkkürdə inikası, forma-üslub dəyərləri dinamik inkişafda, sosial-siyasi nəsrin bədii təkamülü boyunca izlənilmişdir. Yazıçının bədii nəsrinin mənəvi-əxlaqi, sosial-psixoloji dəyərlərinin keyfiyyət göstəriciləri ilk dəfə əhatəli müəyyənləşdirilmişdir. Belə təkamül xəttinin izlənilməsi yazıçının bədii nəsrinin tədqiqi ilə bağlı demək olar ki, ilk təşəbbüsdür. Biz də əsaslandırmışıq ki, şərti-metaforik üslubla insan və cəmiyyət, sosial-psixoloji problemlərin bədii həqiqət səviyyəsində inikası, mənəvi-əxlaqi axtarışlar və seçilmişlərin faciəsinə baxış səviyyəsi həm də S.Səxavətin yaradıcılığında xüsusi yer tutur.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyada çağdaş bədii nəsrdə sosial-psixoloji və mənəvi-etik problemlər araşdırılmış, Seyran Səxavət yaradıcılığına elmi-nəzəri və estetik səviyyədə yanaşma əsas olmuşdur. Bu baxımdan işin nəzəri-praktik əhəmiyyəti Azərbaycan ədəbiyyatşünaslığına müəyyən fayda verə bilər. Tədqiqatın təcrübi əhəmiyyəti bundadır ki, onun nəticələrindən ali məktəblərin humanitar fakültələrində - bakalavr və magistr pillərində keçirilən seminar və praktik məşğələlərdə, ümumi və xüsusi kursların tədrisində dərs vəsaiti, metodik vəsait və s. kimi, o cümlədən Seyran Səxavət yaradıcılığı haqqında yazılacaq elmi monoqrafik əsərlərin tərtibində istifadə oluna bilər.

**İşin aprobasiyası:** Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın başlıca müddəaları xarici ölkələrin və respublikanın müxtəlif elmi məcmuələrində, beynəlxalq və respublika səviyyəli simpoziumlarda, elmi konfranslarda məqalə və tezislər şəklində öz əksini tapmışdır.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və ədəbiyyatdan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində problemin aktuallığı, elmi yeniliyi şərtləndirilmiş, predmet və obyekti, məqsəd və vəzifələri göstərilmiş, elmi metodologiyası, nəzəri və praktik əhəmiyyəti şərh olunmuş, nəticə hissəsində alınan elmi müddəalar ümumiləşdirilmişdir.

Dissertasiyanın **"Ədəbi mühit və yazıçı mövqeyi"** adlanan birinci fəslində Azərbaycan və dünya ədəbiyyatının ən mütərəqqi ənənələri əsasında formalaşıb inkişaf edən çağdaş Azərbaycan nəsrində Seyran Səxavətin mövqeyindən bəhs olunur. Qeyd olunur ki, ədib çağdaş Azərbaycan ədəbiyyatında ədəbi-bədii, fəlsəfi-estetik və milli düşüncənin formalaşmasında önəmli xidmətləri olan yazıçıdır. Onu mahir bir nasir kimi yetişdirən məhz zəngin ənənələrə malik olan Azərbaycan bədii nəsridir. Seyran Səxavətin nəsri çağdaş nəsr olaraq bir çox cəhətlərdən səciyyəvi özəlliklərə malikdir; özünəxas həyat materialı, bu materialı ciddi mətləb baxımından mənalandırmağı bacarmaq, təzə və həyati, real insan tipləri yaratmaq, yeni konflikt tiplərinə müraciət etmək, yeni dil, üslub, forma axtarışları və s. ilə seçilməkdədir. Əgər 60-cı illərə qədər həyatımızın neqativ tərəflərini bədii nəsrimiz, əsasən, rəmzi və eyhamçı üsullarla əks etdirirdisə, Seyran Səxavətin bilavasitə və ya dolayısı ilə əlaqədar olduğu ədəbi nəsil – İsa Muğanna, Sabir Əhmədli, Sabir Azəri, Anar, Ramiz Rövşən, Elçin, Əkrəm Əylisli, Vaqif Bayatlı Odər, Əlisa Nicat, Fikrət Sadıq, Fikrət Qoca, Əzizə Cəfərzadə və digər sənətkarlar sosial eybəcərliyin iri planda konkret obrazını, dəqiq ünvanını göstərməyə əsas diqqət yetirirdilər. Bu bir tərəfdən tənqid azadlığının və sənətkar müstəqilliyinin get-gedə artması, digər tərəfdən isə həyatda dözülməz dərəcəyə çatan sosial-psixoloji yaralara göz yummağın qeyri-mümkünlüyü ilə bağlı idi. Bədii nəsrdə gedən bu dinamik inkişaf prosesində Seyran Səxavət də fəal iştirak edir, qələmə aldığı həyat materiallarının bədii inikasının fərdiliyi və özünəməxsusluğu ilə rəğbət qazanırdı. Yazıçı hamının gördüyü, fəqət çoxlarınının cəsarət edib yaza bilmədiyi, yazılması yasaq və nomenklatura fəalları tərəfindən az qala ədəbsizlik sayılan həqiqətləri bütün detalları ilə işıqlandırmağa çalışırdı.

I fəslin **"İlk addımlar: bədii yenilik axtarışları və tapıntılar"** adlı birinci bölməsində Seyran Səxavəti yetirən ədəbi mühit və yazıçının bədii axtarışları ifadəsini tapmışdır.

Seyran Səxavətin ilk bədii yazısı 1962-ci ildə "Qızıl Araz" qəzetində, "Adalar" adlı ilk şeirlər kitabı isə 1970-ci ildə, "Mənim planetim" adlı ikinci şeirlər kitabı isə 1977-ci ildə işıq üzü görmüşdür. Yaradıcılığının ilk nümunələrindən olan "İki sevgi", "Utancaq məhəbbət", "Alma oğrusu", "Bizim arx", "Ürək", "Sevirəm", "İlk məhəbbət, son məhəbbət", "Balam nə

vaxt iməklər" və s. şeirləri ülvi duyğulardan bəhs edir. S.Səxavət tezliklə sosial mövzulara diqqət yetirmişdir. Ramiz Rövşən Seyran Səxavət haqqında müsahibələrinin birində belə yazır: "Mən tam səmimiyyətlə deyirəm ki, Seyran mənim, Sabir Rüstəmxanlının və bir çox yaradıcı dostlarımızın, yaşıdlarımızın gözünü qorxudan bir şair idi. Amma xoşbəxtlikdən o sonra şeirdən nəsrə keçdi. Bu barədə mən bir dəfə demişəm ki, şairlərin xoşbəxtliyindən, nasirlərin bədbəxtliyindən Seyran Səxavət şeirdən nəsrə keçdi"[1] O, 1975-ci ildə nəsr yaradıcılığına qədəm qoymuş, İranda tərcüməçi işləyərkən "Hamı elə bilirdi" adlı ilk hekayəsini yazmış və nəşr olunmaq üçün Bakıya göndərmişdir.[2] Seyran Səxavətin ilk kitabı da məhz bu hekayənin adı ilə "Hamı elə bilirdi" adlanmışdır. Kitaba yazıçının "Hamı elə bilirdi", "Çayçı Rəşid", "Alça çiçəyi", "Toy havası", "Ət taxtası", "Dəyirmanın boğazında", "Parovozsürən" hekayələri və "Ağrı" povesti daxil edilmişdir. Kitab haqqında Bəxtiyar Vahabzadə "Ədəbiyyat və incəsənət" qəzetində "Oxudum, heyran oldum" adlı resenziya yazmışdır.[3]

1960-cı illərin nəsr ənənələri üzərində yetişən Seyran Səxavət yeni bədii nəsrə mənəvi-əxlaqi münaqişə, psixoloji qarşıdurma motivləri, fikir və hiss dolğunluğu gətirmişdir. Kənd və şəhər münasibətlərinin təzadları bu nəsrin həyat materialına çevrilmişdir. Təhkiyə və təsvirçiliyə uymadan detal və təfərrüatların "diliylə" danışmaq Seyran Səxavət nəsrinin xüsusiyyətlərindəndir. Onun "Madonnanın əri Fərəməz kişi", "Yüz ilin kişisi", "Bir kisə kartof", "Yaz oğrusu", "İşıq xətləri" kimi hekayələri, "Ağrı", "Qapıların o üzündə qalan dünya", "Gözü işığa düşən adam", "Dar köynək" kimi povestləri və "Daş evlər" romanının uğurları məhz bunda axtarılmalıdır.

Seyran Səxavətin "Ağrı" povesti müharibə illərində Azərbaycan kəndlərindən birində yaşayan əsgər ailəsinin taleyindən bəhs edir. Müəllif əsəri "Ağrı" adlandırsa da, onda daha çox müharibə dövrü adamlarının xarakteri və münasibətləri təsvir obyektinə çevrilmişdir. Povestdən alınan məna budur ki, həyatın törətdiyi dəhşətlər nə qədər ağır olsa da, insanın məhəbbəti və qayğısı qarşısında gücsüzdür[4].

Kiçik hekayə janrı, bir-birindən maraqlı povest və romanlar Seyran Səxavətin dərin müşahidə və axtarışları, mükəmməl bədii ümumiləşdirmələri, dərin bədii təxəyyülü, cilalanmış bədii dil və üslubu onun yaradıcılıq uğurlarının nəticəsi idi.

---

[1]Səxavət Seyran. "Allahın Seyran Səxavət adlı ssenarisini yaşayıram", "Müsavat" qəzeti, 23 fevral 2009, s.7

[2]Məmmədli Mürşüd. Böyük Sözün Halal övladı, "525-ci qəzet", 18 mart 2006, s.9

[3]Vahabzadə Bəxtiyar. Oxudum, heyran oldum, "Ədəbiyyat qəzeti", 29 sentyabr 2000, s.2

[4] Zalov Rəhim. Cığırlar yola qovuşur, "Qızıl ulduz" qəzeti, 17iyun 1980, s.4

"Hamı elə bilirdi" hekayəsi güclü avtobioqrafizmi, maraqlı təhkiyə tərzi ilə yadda qalır. "Toy havası" hekayəsində Əhməd və Məhəbbətin daxili yaşantıları, onların məhəbbət, sədaqət və etibarı, mənəvi hiss və duyğuları obrazlaşdırılmışdır. Müəllif "Ət taxtası" hekayəsi ilə cəmiyyətdəki nöqsanların və xəstə təfəkkürlü insanların islahına çalışmışdır. "Alça çiçəyi" də belə hekayələrdəndir. Seyran Səxavətin əsərlərində biz həyatın ziddiyyətlərindən törəyən fərdi-psixoloji və ictimai məna yükünü görürük. Yazıçının "Çayçı Rəşid" hekayəsi incə yumor əsasında yazılmışdır. Müəllif qondarma sujet və hadisələr dalınca getməmiş, sujeti şirin və məzəli dialoqlar üzərində qurmuşdur. "Çayçı Rəşid" hekayəsindəki şirin və axıcı təhkiyə "Sanatoriya" povestində Mərdanla Qəmbər arasındakı dialoqda da davam etdirilmişdir.

1985-ci ildə Seyran Səxavətin "Daş evlər" romanı işıq üzü görüb. Əsərdəki gənc şair Akif Meşəbəyioğlu Seyran Səxavətin özüdür. Yazıçı əsərdə gənclik və tələbəlik illəri, müharibə veteranı Fərhad kişi, evdar qadın Zəkiyyə xala, taksi sürücüsü Əhməd, professor Əsgərzadənin mənəvi yaddaşını qoruyub saxlamışdır.

Seyran Səxavətin "Dar köynək" (1987) kitabına onun "Dar köynək" və "Gözü işığa düşmüş adam" povestləri daxil edilmişdir. Bu əsərlərdə müəllifin faktları mənalandırmaq bacarığı diqqəti cəlb edir.

Xarakterlərin daxili aləmini açmaq "Bir stəkan hava" povesti üçün səciyyəvidir. Maraqlı, axıcı, müsiqili təhkiyə baş qəhrəmanın musiqiçi təbiətini ifadə edir. Sarvanla Sevərin nakam məhəbbətindən bəhs edən əsərdə yazıçı xəyali söhbətlər, daxili monoloqlar, fantastik ünsürlər, şərti-simvolik obrazlar fonunda oxucunu sevginin qüdrətinə inandırır. "Yüz ilin kişisi" hekayəsində isə yazıçı insanın taleyi, həyatın mənası, ölümün labüdlüyü haqqında düşüncələrini ifadə etmiş, Bəylər kişinin ömür yolunu canlandırmışdır.

Seyran Səxavətin nəsrində bir şeiriyyət, şeir duyumluluğu vardır. Yazıçı mürəkkəb, bəzən mücərrəd görünən fikir və hissləri oxucuya təbii axarda təqdim etməyi bacarır. Bu mənada biz Seyran Səxavətin bədii nəsrində qəhrəmanların mənəvi dünyasını görür, onların ruhani varlığı ilə qarşılaşırıq.

Fərd və cəmiyyət, insan və dünya, əxlaq və mənəviyyatsızlıq problemləri Seyran Səxavətin bədii axtarışlarında mühüm yer tutur. Yazıçının əsərlərində ümumən bir genişlik, obrazlı çoxqatlılıq və epiklik müşahidə olunur. Onun hekayələrində mənəvi-əxlaqi məsələlərin maraqlı bədii həllinə və insan xarakterlərinin orijinal boyalarla təsvirinə rast gəlirik. Seyran Səxavətin hekayələrinin dili xalq danışıq dilində olduğu qədər canlı və anlaşıqlı, süjet və kompozisiyası olduqca təbii və sadədir.

Yazıçı istər mövzu və problem, istərsə də bədii dil və sənətkarlıq baxımından Azərbaycan nəsrinin ən yaxşı ənənələrinə söykənmiş və onu inkişaf etdirmişdir. Tənqidi, ironik ifadə tərzinin dərinliyi, dramatizmin qüvvətli yumorla birləşməsi, bədii formanın kamilliyi və zənginliyi Seyran Səxavət nəsrinin keyfiyyət göstəricilərindəndir.

Seyran Səxavət Azərbaycan cəmiyyətini narahat edən problemləri özündə əks etdirən, oxucunu düşündürən və ona doğru yol göstərən qiymətli əsərlər müəllifi kimi tanınmağabaşlayır və əsərləri ilə insanı əqli-emosional kamilliyə və mənəvi-əxlaqi bütövlüyə səsləyir.

I fəslin "**Dilin obrazlılığı və obrazların dili**" adlı ikinci bölməsində Seyran Səxavətin bədii nəsr dili və üslubuna, onun bədii forma və sənətkarlığına baxış ifadəsini tapmışdır. Yazıçının bütün əsərlərində orijinal yazı manerası, üslub və süjet yeniliyi, ənənəvi olmayan bənzərsiz təhkiyə tərzi, həssas yazıçı duyumu, dərin müşahidə qabiliyyəti və aydın müəllif mövqeyi diqqəti cəlb edir.

S.Səxavətin əsərləri həm də bədii dilinin gözəlliyi, canlılığı və şirinliyi ilə seçilir. Dilin sərrastlığı sənətkarın həyatı düzgün dərk etməsi deməkdir. Ədəbi dil xalq dilinə nə qədər yaxın olarsa, əsərin poetik təsiri, ifadə tərzi də bir o qədər güclü olar. Bu mənada Seyran Səxavətin dili axıcı, ifadəli, rəngarəng, yumşaq, şirin, rəvan və xəlqi bir dildir.

Yazıçının dil mədəniyyəti, bir tərəfdən onun dil-nitq normalarına necə əməl etməsi, digər tərəfdən dilin təbii imkanlarından istifadə ustalığı ilə bağlıdır. Nitqin səlisliyi, aydınlığı, məntiqiliyi, sadəliyi, dəqiqliyi, zənginliyi, ardıcıllığı, təmizliyi, təsirliliyi, axıcılığı, sinonim vasitələrlə, məcaz növləri ilə dolğunlaşdırılması əlamətləri Seyran Səxavət nəsrinə zənginlik gətirmişdir.

Seyran Səxavətin əsərlərində yazıçı təhkiyəsi ədəbi dil normalarına uyğundur.Yazıçı imkan daxilində ədəbi dilin söz sırasına, mürəkkəb cümlə komponentlərinin yerinə, söz və ifadəyə, morfoloji vahidlərin düzgün seçilib işlədilməsinə əməl edir, loru, vulqar sözlərdən, dildə sabitləşməmiş alınmalardan qaçır, hadisə və obrazların dolğun və hərtərəfli təsviri üçün çoxmənalılıq və sinonimlik prinsiplərini ön plana çəkir, lazım gəldikdə təhkiyəyə kinayə çaları hopdura bilir.

Mirzə Cəlil, Ə.Haqverdiyev, N.Vəzirov, A.Şaiq kimi klassik sənətkarlarımızla yanaşı, M.İbrahimov, S.Rəhimov, İ.Əfəndiyev, M.Hüseyn, İ.Şıxlı və başqaları obrazın nitqini şivə xüsusiyyətləri ilə fərdiləşdirmə prinsipindən geniş istifadə etmişlər. Dilin rəngli və bədii olması, obraz nitqinin tipikləşdirilməsi, ədəbi dilin zənginləşdirilməsi üçün ümumxalq dilinin qolları — dialekt və şivələr zəngin material verir. Lakin şivə elementləri ilə bədii dili məhəlli dilə çevirmək olmaz. Milli kolorit, sözlərin müxtəlif şəkildə ustalıqla

əlaqələndirilməsi və dildə mövcud olan komik yüklü söz və ifadələr bədii əsərin yumoristik və satirik ruhda formalaşmasına səbəb olur.[1] Seyran Səxavət satirik yazıçı deyildir, lakin onun əsərlərində komizm elementlərinin rolu böyükdür. “Tərif yaltaqlığın lirikasıdı”, “Kənardan baxanda Yer kürəsi çürük toxuma oxşayır, yaxından baxanda isə görürsən ki, oxşamır, elə çürükdü” və s. Seyran Səxavətin istifadə etdiyi satirik detallar öz tipikliyi, səciyyəviliyi ilə yazıçıya güclü rəğbət yaradır.

Seyran Səxavətin fikrin rəmzi-bədii ümumiləşdirmələrlə ifadəsi, hadisə və xarakterlərin bədii-psixoloji təhlili, sosial-psixoloji və mənəvi-əxlaqi problemlərin güclü bədii inikası, ictimai nöqsanların fəal yazıçı mövqeyindən tənqidi, lirik-epik təsvirin komik və tragik hallarla əlaqələndirilməsi kimi xüsusiyyətlər diqqəti cəlb edir.

Yazıçının əsərlərində cəmiyyətdə hökm sürən sosial-siyasi və əxlaqi problemlərin qabarıq ifadəsi görünür. Müəllif cəmiyyətin mövcud olan qüsurlarını təhlil və tənqid etmək üçün kinayə, ironiya, sarkazm və s. vasitələrdən bacarıqla istifadə etmişdir.

**“Sosial-psixoloji problemlər və bədii həqiqət”** adlı II fəslin **“Gerçəkliyin şərti-metaforik formalarda bədii inikası”** adlı I bölməsində Seyran Səxavət nəsrinin şərti-metaforik planda əksi, onun milli-bəşəri xüsusiyyətləri, habelə, reallıqla bədiiliyin birliyi təhlil predmeti olmuşdur. Müasir dövrdə yaranan nəsr əsərlərinin bir çoxunda sosial-psixoloji problemlər bədii təzahürünü tapmaqdadır. Çingiz Hüseynovun “Məhəmməd, Məmməd, Məmiş”, “Fətəli fəthi”, Sabir Əhmədlinin “Axirət sevdası”, “Kef”, “Həmişə azadlıqda”, Yusif Səmədoğlunun “Qətl günü”, Anarın “Ağ qoç, qara qoç”, “Yaxşı padşahın nağılı”, Vaqif Sultanlının “İnsan dənizi”, “Səhra savaşı”, Aqil Abbasın “Dolu”, “Çadırda Üzeyir Hacıbəyov doğula bilməz”, Səfər Alışarlının “Maestro”, Elçin Hüseynbəylinin “Yovşan qağayılar”, “Metro vadisi”, Seyran Səxavətin “Qızıl teşt”, “Sanatoriya” povestləri, “Nekroloq”, “Yəhudi əlifbası” romanları dərin psixologizmi, sosial-siyasi mahiyyəti, yüksək bədii-sənətkarlıq xüsusiyyətləri ilə diqqəti çəkməkdədir.

Professor Tofiq Hüseynoğlu “Müasirlik və şərtilik” adlı məqaləsində yazır: “Şübhəsiz ki, Zöhhak şərti-metaforik obrazdır, onun haqqında yaradılmış əfsanələr və bu əfsanələrdən istifadə ilə yazılmış əsərlər isə şərti-metaforik üslubdadır. Bu şərtiliyi və metaforikliyi nəzərə almadan, onun bənzərinin həyatda ola biləcəyini və ya ola bilməyəcəyini əsas meyar götürüb, nəticədə “yalan, uydurma olduğunu, ağılabatmadığını bildirməklə, iddia etməklə heç nəyə nail olmaq, ümumiyyətlə, mahiyyətə varmaq mümkün deyil”[2].

---

[1] Kazımov Qəzənfər. Sənət düşüncələri. Bakı: Azərbaycan Dövlət Palatası, 1997, s.27
[2]Hüseynoğlu Tofiq. Söz-tarixin yuvası. Bakı: Azərnəşr, 2000, s. 156.

Rəmzdən, alleqorik obrazdan, şərtilikdən istifadəyə dünya ədəbiyyatında Uilyam Şekspirin "Hamlet", Qabriel Qarsia Markesin "Yüz ilin tənhalığı", "Patriarxın payızı", "Gözlənilən bir qətlin tarixçəsi", Frans Kafkanın "Hökm", "Çevrilmə", Mixail Afanasyeviç Bulqakovun "Master və Marqareta", Herman Hessenin "Yalquzaq", Çingiz Aytmatovun "Gün var əsrə bərabər", "Ağ gəmi", "Dəniz kənarıyla qaçan alabaş", Knut Hamsunun "Aclıq", "Torpağın bərəkəti", Erix Maria Remarkın "Xülyalar sığınacağı", "Qərb cəbhəsində yenilik yoxdur", "Zəfər tağı", Henrix Böllün "O illərin çörəyi", "Bir təlxəyin düşüncələri", "Mənim qəmli sifətim", Corc Oruellin "1984", "Heyvanıstan" əsərlərində rast gəlirik.

Şərtilik müasir insanın zəngin daxili aləmini açmaqda, yazıçının dünyaya baxışının və şüuraltı proseslərin aydınlaşdırılmasında və təsvirində köməkçi bədii vasitədir və buna görə də o, son dərəcə əsaslandırılmış olmalıdır. İnsan zəkası elə bir səviyyəyə yüksəlmiş, elə mürəkkəb keyfiyyətlər əldə etmişdir ki, aşılamaq istədiyin fikri, yaratmaq istədiyin xarakteri, göstərmək istədiyin personajı birbaşa təqdim etməklə bədii nailiyyət qazanmaq çətindir, belə hallarda bəzən yardımçı bədii vasitə - şərtilik tələb olunur.

Bəhs edilən dövrdə dünyanın elə bir mərhələsi yetişmişdi ki, həyata və gələcəyə ümidli və inamlı münasibətdən daha çox həyəcanlı baxış güclü idi. Dünyanın və insanın gələcəyi haqqında güclü xəbərdaredici əhval-ruhiyyəsi ifadə edən əsərlər yazılırdı. Bu əsərlərin adları da həyəcanlandırıcı və xəbəredici bir mahiyyət daşıyırdı: məsələn, İsa Muğannanın "Məhşər", Valentin Rasputinin "Yanğın", Çingiz Aytmatovn "Cəllad kötüyü", Yusif Səmədoğlunun "Qətl günü", Elçinin "Ölüm hökmü", İsmayıl Şıxlının "Ölən dünyam"... və s. Bəhs edilən dövrdə və ondan sonrakı zamanlarda bu narahat ruh, daxili nigarançılıq, həyəcan təbili Seyran Səxavətin "Dar köynək", "Gözü işığa düşmüş adam", "Qapıların o üzündə qalan dünya", "Daş evlər", "Yəhudi əlifbası", "Nekroloq" kimi əsərlərində də aydın müşahidə olunur.

Seyran Səxavət yaradıcılığının ana mövzusu dünya və insan problemidir. Dünya və insan problemi ədəbiyyatın inkişafının bütün mərhələrində mərkəzi problemlərdən biri olmuşdur. Bu bölmədə təhlil etdiyimiz "Nekroloq" da çoxplanlı roman kimi adamları "adamlığ"a çağıran əsərlərdəndir[1].

"Nekroloq" romanı milli mənəvi dəyərləri, sosial-siyasi bəlaları daha qabarıq təqdim edən əsərlərdəndir. "Bu əsərdə milli-mənəvi dəyərlərə hörmət, kökə qayıtma, ondan yararlanma, milliliyi qoruyub saxlama prinsipləri əsasdır"[2]. Əsərin adında və ideyasında belə bir şərtilik özünü göstərir.

---

[1]Hüseynoğlu Tofiq. Söz – tarixin yuvası. Bakı: Azərnəşr, 2000, s.93
[2]Şərifova Salidə. Müasir Azərbaycan romanlarında ictimai-siyasi mühitin təsviri problemləri, Bakı: BQU, 2007, s.248

Seyran Səxavətin «Nekroloq» romanı sosial-siyasi problemlərin bədii təcəssümü baxımından qiymətlidir. Romanda Azərbaycanda cərəyan edən ictimai-siyasi hadisələr şərti-metaforik üslubun imkanları fonunda orijinallıqla bədii əksini tapmışdır. «Nekroloq» vahid süjet əsasında yazılmış əsər deyil. Onu ənənəvi romanlardan fərqləndirən cəhətlərdən biri məhz bununla bağlıdır. Belə ki, romanda biri-biri ilə uzaq rabitəsi olan fərqli süjetlər verilmiş, dövrün ictimai-siyasi və mənəvi-psixoloji ab-havası bu süjetlərin çərçivəsinə hopdurulmuşdur.

«Nekroloq» romanında ayrı-ayrı süjet xətləri ilk növbədə fikri assosiativliklə bir-birinə bağlayır və kompozisiya yaradır. Bu əsəri süjet-kompozisiya tərtibatına görə «hekayələr romanı» da adlandırmaq olar»[1]

Romanın əsas qəhrəmanı Xalqdır. Şərti səciyyə daşıyan bu obraz əsərdəki bütün süjetləri, hadisə və əhvalatları, obrazları biri-birinə bağlayır. Yazıçı əvvəllər mövcud olmuş Xalqın ölüm səhnəsini təsvir etməklə əslində, bu ölüm fonunda millətə məxsus mənəvi-əxlaqi dəyərlərin məhv olub sıradan çıxmasına etiraz etmişdir.

"Nekroloq" romanı tarixiliklə səsləşən müasirliyi, həyati materiallarının zənginliyi, müəllifin ümumiləşdirmə bacarığı və mövqeyinin aydınlığı, problemlərin yüksək bədii dillə ifadəsi, fikrin məcazlarla, rəmzi-bədii şərtiliklərlə verilməsi ilə diqqəti cəlb edir. Adət-ənənələrin tapdalandığı, mənəviyyatın aşındığı, xalqın kütləyə çevrilmə təhlükəsinin hiss edildiyi bir məqamda yazıçı cəmiyyətdə baş verən hadisələri bütün canlılığı, emosional təbiəti ilə göstərmişdir. Romanda ictimai şüur və milli birlik problemi geniş planda bədii həllini tapmışdır.Yazıçı işıqlı düşüncələri ilə millətin oyanışı və tərəqqisinə mane olan qüsurları aradan qaldırmağa, insanları maariflənməyə çağırmışdır.

"Nekroloq" romanında diqqəti cəlb edən əsas obraz olan Xalq Elçinin "Mahmud və Məryəm" əsərindəki camaat, Sabir Əhmədinin "Kütlə" romanındakı kütlə obrazları ilə müqayisəli təhlil süzgəcindən keçirilə bilər. Yusif Səmədoğlunun "Qətl günü" romanındakı Kirlikir obrazı da elə Xalqın ümumiləşdirilmiş obrazıdır. Əsəri oxuduqca Kirlikirin fədakar, zəhmətkeş, lakin qədir-qiyməti bilinməyən Xalq olduğu tamamilə anlaşılır.

Şərtilik baxımından "Nekroloq" romanında da Seyran Səxavət bədii ümumiləşdirmənin zaman və məkanla əlaqədar hüdudlarını genişləndirmişdir. Romanda çağdaş Azərbaycan cəmiyyətinin sosial-siyasi və mənəvi mənzərəsi genişliyi ilə görünür.

---

[1]Salamoğlu Təyyar. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: Səda, 2009, s.238.

Bu mənada “Nekroloq”u qrotesk-roman adlandırmaq olar. Necə ki, “Nekroloq” adının özü də qroteskdir. Çünki romanda bir adamın, yaxud bir ailənin yox, bütöv xalqın mənəvi ölümündən söhbət gedir.

Yazıçı vahiməli bir gecənin fonunda acınacaqlı, kədərli bir səhnə təqdim edir. Beş yaşlı körpə qız gənc atasının sinəsinə qısılıb ölmək istəmir. Amma aclıq, soyuq, səfalət içində bu talehsiz körpənin həyatı bitir. Uşaq müharibə əlili, təkqollu gənc atasının qucağında can verir. Bu səhnəni yazıçı şamın can verməsi kimi təsvir edir: “Şam can verirdi. Cavan ata gözünü şama zilləmişdi. Son gücünü toplayıb körpə qızını bir də sinəsinə sıxdı. Cavan atanın bədəninə ılıq bir istilik yayıldı, bu istilik onun canını bir az da isitdi. Ata körpəsinin ölüm tərini, alışıb-yandığını hiss eləmirdi. Cavan ataya elə gəldi ki, ev də yavaş-yavaş isinir”[1].

Əsərdəki metaforik obrazlardan biri də “səkinin qırağına muncuq kimi düzülənlər”dir. İşsizlikdən, imkansızlıqdan yolların, səkilərin kənarına “muncuq kimi” düzülüb beş manat çörəkpulu qazanmaq üçün əməyini satan bu insanlar heç bir maddi təminatı olmayan, gün çörəyinə möhtac olan, ehtiyac ucbatından “qul bazarında” öz əməyini satan Qarabağ müharibəsi veteranları – qazilərin ümumiləşdirilmiş obrazıdır. “Qazilərin qul bazarında özünü satdığını görən camaat ən azı hiss eləməliydi ki, onların gözlərinin qarşısında tarix geriyə - çox qədimlərə döndü və onlar da bu dönüşün canlı şahidi oldular”[2].

Seyran Səxavətin bir kəndin, bir elin timsalında bədii ümumiləşdirmələrlə qələmə aldığı bu hadisələr, əslində, bütün dünyada baş verən, insanlığın, xeyirin, işığın təməlini kökündən sarsıdan sosial-siyasi və mənəvi-əxlaqi problemlərdir. Elə problemin bəşəriliyi də onun mahiyyətindədir. Romanda milli düşüncə ilə bağlı maraqlı bir məqam da var ki, bu da heykəllərin: M.F.Axundzadə, M.Ə.Sabir, H.Z.Tağıyev, X.Natəvan nitqi ilə bağlıdır. Mitinqə toplaşan ədiblərimizin, ziyalılarımızın heykəlləri xalqa müraciət edərək xalqı birliyə - özünün və sözünün sahibi olmağa çağırır. Əsərdə baş həkim, xalq düşməni, qaçqın, fahişə, qul, jurnalist, şair, heykəllər və başqa şərti-metaforik obrazlar da təsvir olunan hadisə və süjetlərin məzmunu, qayəsi haqqında canlı təsəvvür yaratmağa imkan verir.«Nekroloq» romanında «yaşı yüz min illəri çoxdan keçən» məmləkətin müasir durumu – ictimai-siyasi, mənəvi-əxlaqi və psixoloji mənzərəsi haqqında gerçək fikir formalaşdırmaq, zamanın obrazını yaratmaq əsas məqsəddir»[3]. Bütövlükdə

[1]Səxavət Seyran. Nekroloq. Bakı, Mütərcim, 2002, s. 8-9
[2]Səxavət Seyran. Nekroloq. Bakı, Mütərcim, 2002, s.154.
[3]Salamoğlu Təyyar. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, «BQU» nəşriyyatı, 2008, s.452

"Nekroloq" əsəri uğurlu alınmış və çağdaş Azərbaycan romanlarının əhəmiyyətli nümunəsinə çevrilmişdir.

İkinci fəslin **"Millilikdən bəşəriliyə..."** adlı bölməsində Seyran Səxavətin yaradıcılığının milli, xəlqi və ümumbəşəri keyfiyyətləri əks etdirilmişdir. Seyran Səxavətin əsərlərində millilik ümumiliyin, ümumbəşəriliyin tərkib hissəsi kimi özünü göstərməklə yanaşı, həm də obrazların mənəvi-psixoloji yaşantılarının ifadə vasitələrindən biri kimi çıxış edir.

Azadlığı əlindən alınan, torpağından didərgin salınan, öz vətənində köçkün həyatı sürən, mümkünsüz qayıdışın əzabını yaşayan, məğlub edilən, lakin məğlubiyyətini dərk edə bilməyən millətin faciəsini özündə əks etdirən "Nekroloq", "Yəhudi əlifbası", "Qızıl teşt" və s. əsərlərində yazıçı cəmiyyətə üz tutaraq ciddi xəbərdarlıq etmiş, insanları öz tarixi kimliyini, milli mahiyyətini dərk etməyə çağırmış, düşdüyü bəlalardan xilas olmağın yollarını göstərmişdir. Seyran Səxavətin "Yəhudi əlifbası" əsərində geniş mənada totalitarizmin, despotizmin tənqidi, tirançılığa, avtoritar rejimə, sadizmə qarşı mübarizə mühüm yer tutur. Yazıçının işıqlandırdığı bu məqamlar regional məsələ deyil, sözün tam mənasında, ümumbəşəri mahiyyət, planetar səciyyə daşıyır. Seyran Səxavətin yüksək sənətkarlıqla yazdığı bu əsərdə zamanların və nəsillərin əlaqəsi ön planda verilir. Professor Tofiq Hüseynoğlu maraqlı bir fikir söyləyir: "O əsərdə ki, şərti-metaforik plan var, orda fəlsəfə var, orda əzəli və əbədi məsələlərin mahiyyətini ifadə edən mənalar var, orada millilik və bəşərilik var".[1]

"Yəhudi əlifbası" romanında yazıçı insanlığı uçuruma aparan bir sıra aktual, ümumbəşəri problemlərə toxunmuşdur. Xalqın mentalitetindəki əxlaq, davranış, adət-ənənə və s. mənəvi dəyərlər getdikcə öz təməlindən qopur, ayrılır, insanlar şərin, nəfsin və ehtirasların əsiri, qurbanı olur. Bu cür sosial ziddiyyətlərin kökündə ictimai ədalətsizlik, vicdansızlıq və mənəvi kasadlıq dayanır. Hadisələrin təsvirində müəllif rəmzi-simvolik obraz yaradır: Gələn. "O gələn kimi Yer kürəsi ölü sükuta bürünür və Gələn insanları əməllərinə görə imtahan edir". Bu mənzərəni yaratmaqla Seyran Səxavət bütövlükdə bəşəriyyəti saran ictimai eyiblərə, naqisliklərə, qüsurlara ayna tutur, insanlığın mübtəla olduğu bu ümumbəşəri xəstəlikdən - mənəvi şikəstlikdən xilas olmağın yollarını arayır.

Təkcə "Yəhudi əlifbası" deyil, demək olar ki, Seyran Səxavətin bütün əsərlərində bəşəriyyətin taleyindən narahatlıq hissi duyulur. Müəllif bütün əsərlərin sonunda dünyanın, insanlığın xilasını məsum körpələrin quracağı sağlam gələcəkdə görür. Uşaqların saflığı, məsumiyyəti, paklığı, Tanrının

---

[1]Hüseynoğlu Tofiq. Söz – tarixin yuvası. Bakı: "Azərnəşr", 2000, s.97

uşaqlara böyük qayğısı, etimadı, uşaqların quracağı dünyanın gözəlliyi və əmin-amanlığı, demək olar ki, ədibin bütün əsərlərində (“Persona non Qrata”, “Nekroloq” və s.) aparıcı məqam kimi yadda qalır.

Seyran Səxavətin yaradıcılığını izlədikcə bu qənaətə gəlirik ki, o, ən adi həyat hadisələrini belə ümumbəşəri səviyyədə dəyərləndirməyi, insanın və insanlığın mənafeyi miqyasında ümumiləşdirməyi bacaran, hadisələrin özünə yox, fəlsəfəsinə, mahiyyətinə daha çox diqqət yetirən, milli və ümumbəşəri məna və mündəricəyə malik olan sənətkardır.

İkinci fəslin üçüncü bölməsi “**Reallıqla bədii təxəyyülün harmoniyası”** adlanır. Səməd Vurğun “Böyük sənət məsələsi” adlı məqaləsində yazırdı ki, “Cəsarət böyük yaradıcılıq məsələsidir. Formada, məzmunda, ideyada, həyat materialına yanaşmada və bədii həqiqələri ortaya çıxarmada cəsarət olduqca mühüm məsələdir. Cəsarətin özəyində, kökündə o dayanır ki, sənətkar çəkinmədən reallığı, gerçəkliyi əks etdirə bilsin. Əgər cəsarət və yazıçı vicdanı varsa, böyük yaradıcılıq və əsl sənətdən, həqiqi bədii əsərdən söhbət gedə bilər. Böyük yazıçılar öz zamanlarının ideoloqu olmuşlar. Biz sənətkarlar unutmamalıyıq ki, yaratdığımız hər bir əsər cəmiyyətimizin mənəvi aləminə bir yenilik, işıq, müdriklik, dərin fəlsəfə və inqilabilik gətirməlidir...”[1].

Bu mənada S.Səxavətin esse, povest, hekayə və roman yaradıcılığında reallığın inandırıcı təqdimatına, müəllif cəsarətinə, toxunulan problemlərin aktuallığına rast gəlirik. “Qızıl teşt” əsərində rus-sovet müstəmləkəsi dövründə Azərbaycan xalqının başına gətirilən faciələr, fəlakətlər real bədii lövhələrlə, canlı, təkrarsız insan xarakterləri ilə ifadəsini tapmışdır.

Yazıçı bu əsər vasitəsilə sovet ideoloji sisteminin ayrı-ayrı xalqlara aşıladığı müstəmləkəçilik siyasətinin gerçək mahiyyətini üzə çıxarmışdır. Əsər “... yalan dünya ilə haqq dünyasını, maddiyyat düşkünləri ilə mənəvi paklığı uca tutanları, iblislərlə munisləri qarşılaşdırmaqla oxucuları əsl mətləblərdən agah edir, onların düşüncə sferasını genişləndirir və dərinləşdirir”[2]

“Qızıl teşt”də Azərbaycan gerçəkliyinə söykənən hadisə və situasiyaların bədii təxəyyüllə, yazıçı fantaziyası ilə ideal harmoniyası yaradılmışdır. Real həyat materialına əsaslanan, lakin bədii üslubun tələblərinə əhatəli cavab verən “Qızıl teşt” povesti həm qoyulan sosial problemlərin aktuallığı, həm də dərin psixologizmi ilə diqqəti çəkməkdədir. Əsər mövzu, dil-üslub, süjet, kompozisiya və bədii xüsusiyyətlərinə görə orijinal səpkidə yazılmışdır.

---

[1]Vurğun Səməd. Əsərləri, 6 cilddə, VI cild, Bakı: Elm, 1972, s.264
[2]Hüseynli Seyfəddin. “Qızıl teşt” 13 il sonra, “525-ci qəzet”, 13 oktyabr 1999, s.12

“Qızıl teşt”də zamanların və nəsillərin faciəsi verilmişdir. Xəlil Rza Ulutürk 7 iyun 1988-ci il tarixdə gündəliyində Seyran Səxavətin “Qızıl teşt” povesti və eyni adlı pyesi ilə bağlı xeyli qeydlər etmişdir: “Bir var əsərdə bir adamın, bir ailənin faciəsini təsvir edəsən – bunun özü mühüm məsələdir. Bir də var ki, bütöv bir epoxanın, xalqın, millətin taleyini, yaşantılarını, əzablarını, faciəsini canlandırasan – bu, böyük ədəbiyyat işidir. Ədəbiyyata şair kimi gəlmiş, yazıçı kimi şöhrətlənmiş, sadə geyimli, ağ köynəkli, mərd, təvazökar, türk sifətli Seyran Səxavət bu işin öhdəsindən şərəflə gəlib”[1]

Hüseynovları yaradan əsas səbəblərdən biri ölkədə illərdən bəri kök salmış inzibati – amirlik idarəetmə üsulu, yəni hər şeyin bir adamın iradəsinə tabe edilməsidir. Milyonlarla insanın “eyni cür” düşündüyü, “eyni cür” davrandığı, “məsləhət sizindir”-deyə əli-əl üstə, əmrə müntəzir, buyruq gözlədiyi şəraitdə Hüseynov kimilər hamıdan güclüdür, hakimi-mütləqdir, istədiyi adama iş verəcək, istəmədiyini işdən qovduracaq, illərlə süründürəcək, xoşu gələn adamı “geroy” edəcək, sinəsinə deputat nişanları taxacaq, adına dastanlar qoşduracaq qədər külli-ixtiyar sahibidir.

Xalq yazıçısı İsmayıl Şıxlı yazırdı: “İstedadlı yazıçı Seyran Səxavətin ustalığı orasındadır ki, belə bir surəti yaradarkən şablon yolla getməmişdir. Qəhrəmanını birtərəfli, bütün mənfilikləri özündə cəmləşdirən tip kimi təsvir etməmişdir. O, Hüseynovun bir insan kimi faciəsini, mənəvi əzab və sarsıntılarını da incəliklə göstərmişdir. Bu şəxsi sarsıntılar ictimai məsələlərlə çarpazlaşdıqda əsərin də, surətin də siqləti artır”[2]

Xalq yazıçısı davam edir: “Mən Seyran Səxavətin bu povestini birnəfəsə oxumuşam, povestin səhnə versiyasına – “Qızıl teşt” faciəsinə isə iki dəfə baxmışam. Hər iki dəfə də camaatın nəfəsini dərmədən, səhnədən deyilən sözləri dinlədiyinin şahidi olmuşam, Xanəhmədin qılıncdan kəskin atmacalarından sonra uzun müddət davam edən alqışları eşitmişəm. Sözün düzü, xeyli vaxtdı belə səmimiyyətlə qarşılanan tamaşaya baxmamışdım. İlk dəfə idi ki, belə müşahidəm olurdu - tamaşada ayaqüstə qalxıb yarım saata qədər səhnədəkiləri alqışlayan adamların sevincini unuda bilmirəm. Onu da unuda bilmirəm ki, gözləmədiyi halda gül-çiçək dənizi içində itən rejissor sakit-sakit ağlayırdı, müəllif isə toxtaq idi... Ümumiyyətlə, demək istəyirəm ki, həm povest, həm də pyes kimi “Qızıl teşt” əsəri sübut etdi ki, vaxtında yazılmış, cəsarətli əsərlərə həmişə böyük ehtiyacımız var”[3].

---

[1]Ulutürk Xəlil Rza. “Qızıl teştin ürək ağrısı həyat həqiqətinə vurğunluqdan və kəsafəti darmadağın etmək əzmindən yaranmışdır!”, “525-ci qəzet”, 5 oktyabr 1999-cu il, s.13
[2]Şıxlı İsmayıl. Səbəb və nəticə, “Azərbaycan kommunisti” jurnalı, 1988, № 10, s. 107
[3]Şıxlı İsmayıl. Səbəb və nəticə, “Azərbaycan kommunisti” jurnalı, 1988, № 10, s. 111

Dissertasiyanın üçüncü fəsli **“İnsan və cəmiyyət mənəvi-əxlaqi axtarışlar müstəvisində”** adlanır. **“İnsanın özünüdərki: milli-mənəvi yaddaş məsələsi”** adlanan birinci bölmədə S.Səxavətin uyğun bədii nəsr nümunələri təhlil süzgəcindən keçirilir.

Müəllifin mövzu seçimi, problem aktuallığı, məzmun orijinallığı, ideya, baxış yeniliyi ilə diqqəti çəkən bu əsərlərində qoyulan problemlər və onların bədii həlli özünəməxsusluğu ilə seçilir. Təhlil edilən əsərlərdə bizi əhatə edən mikro və makromühitdə gedən bu və ya digər proseslərin insan mənəviyyatına, düşüncə və fikir aləminə etdiyi təsirlər də öz bədii əksini tapmaqdadır. Qloballaşan dünyada baş verən hadisələrin və bununla bağlı çağdaş insanın mənəvi-psixoloji aləmində yaşananların ədəbiyyatda inikasını açıq-aydın müşahidə etməkdəyik.

Professor Tofiq Hüseynoğlu ədəbiyyatımızda mənəvi-əxlaqi axtarışlar mövzusuna 1910-20-ci illərdə müraciət olunduğunu qeyd edir: “Yusif Vəzir Çəmənzəminli, Cəfər Cabbarlı kimi sənətkarların əsərlərində müşahidə olunan bu mövzu 60-70-ci illərdə ədəbiyyatımızda çox işlənən mövzulardan birinə çevrilir: İnsanda insaniyyət mövzusu bir növ ön plana keçirilir.”[1]

Mənəviyyat məsələsi, insan münasibətlərinin tədqiqi sahəsində İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, İsa Muğanna, Sabir Əhmədli, Seyran Səxavət, Anar, Elçin, Vaqif Sultanlı, Sabir Azəri, Mövlud Süleymanlı, Elçin Hüseynbəyli və s. sənətkarların yaradıcılığında intensiv axtarışlar aparılmışdır. Bu barədə istedadlı yazıçımız Seyran Səxavətin bədii nəsri də tədqiqat üçün zəngin material verir.

Professor Yaşar Qarayev yazırdı ki: “Fərariliyin ən bədnam çeşidi – əcdaddan üz çevirməkdir, kökdən, mənşədən, “mən”dən fərar eləməkdir, milli hafizədə, mənəvi yaddaşda (qanda, kökdə) “skleroz” olmaqdır. Yaddaşı olmayan ədəbiyyat yalnız yaddaşı olmayan xalqın nəsibidir, siması olmayanın tarixi taleyi, zatı və nəsli, əsli və nəcabəti olmayanın alın yazısıdır. Üfüq, səma, göy daş saxlamadığı kimi, mənəvi və əxlaqi boşluq da yaddaş saxlamır. Millət – genetik səviyyədə, yaddaş – ağrı səviyyəsində dərk olunmuş vəhdət və bütövlükdür. Yalnız yaddaş olan yerdə sabitlik və tamlıq var, nəsillər və əsrlər, ilahi və bəşəri dəyərlər arasında bağlılıq və estafet var. Əslində, nəinki insan və təbiət, ekologiya və ədəbiyyat da yaddaşdır. Və yaddaşın ömrü bir vicdana və haqqa xidməti qədərindən, bir də qədir-qiymətə, qeyrətə çevrilən anların cəmindən yaranır. Artıq neçə əsrdir ki, Məhəmməd də, İsa da, Qorqud da, Şekspir də bir haqqın, bir də yaddaşın dərgahında yaşayır. Daha doğrusu, tarix, zaman hər yerdən axıb sürüşüb gedir, bir yaddaşa ilişəndə iz qoyur,

---

[1]Hüseynoğlu Tofiq. Söz-tarixin yuvası, Bakı: Azərnəşr, 2000, s.80

qeyrətdə əbədiləşir və abidələşir. Əsl, həqiqi, böyük ədəbiyyat ümumbəşəri yaddaşdır”[1].

Milli-mənəvi yaddaş məsələsi ustad nasirimiz İsmayıl Şıxlının “Dəli Kür”, “Ölən dünyam”, İsa Muğannanın “İsahəq, Musahəq”, Sabir Əhmədlinin “Dünyanın arşını”, Vaqif Sultanlının “İnsan dənizi”, “Səhra savaşı”, Elçin Hüseynbəylinin “Metro vadisi”, “Yovşan qağayılar” romanlarında da ön plana çəkilir və oxuduqca bu qənaətə gəlirik ki, soy-kökünü bilməyən, milli-mənəvi dəyərlərinə sahib çıxmayan xalq qloballaşan dünyada digər xalqların güclü təzyiqinə məruz qalacaqdır.

Dəyərlərin itirilməsi, mənəviyyatın korlanması, insanlığın aşınması kimi problemləri ön plana çəkən, insani başlanğıcın zədələndiyi, deformasiyaya uğradığı məqamlarda insanı özünə, öz tarixi keçmişinə, mənəvi-etik varlığına qaytarmağa və ona təkrarolunmaz fenomen olduğunu sübut etməyə çalışan yazıçı bəzən hadisə və obrazlara istehza, ironiya ilə baxır və əslində, bu yolla insanı düşünməyə, daxilindəki qüsurlardan arınmağa və özünüdərk etməyə sövq edir. Bu barədə Erix Fromm maraqlı bir fikir yazır: İnsan nəhəng potensiala malik universal varlıqdır və bu potensialın dərk edilib reallaşdırılması onun mühüm yeganə vəzifəsidir”. Məhz fərdin, şəxsiyyətin, cəmiyyətin özünüdərki, bütövlükdə milli oyanış və dirçəliş Seyran Səxavətin hekayə, povest və romanlarında geniş planda bədii inikasını tapmış, yazıçı öz işıqlı düşüncələri ilə millətin oyanışına, tərəqqisinə mane olan qüsurları aradan qaldırmağa, insanları maariflənməyə, özünün və sözünün sahibi olmağa çağırmışdır. Bu baxımdan ədibin “Nekroloq” romanı ciddiliyi, həyati materialların zənginliyi, müəllif mövqeyinin fəallığı ilə diqqəti cəlb edir. Mənəviyyatın çökdüyü, adət-ənənələrin tapdandığı, xalqın kütləyə çevrildiyi bir məqamda yazıçı cəmiyyətdə baş verən hadisələri bütün dolğunluğu ilə emosional şəkildə təsvir etmişdir.

“Nekroloq” romanında qoyulan problemlər arasında ən başlıcası “milli yaddaş” problemidir. “Eyni zamanda, ondan rişələnən digər problemlər də romanda az əhəmiyyətli deyildir. Vətənsizlik, dövlətçilik, müstəqillik dövründəki anomaliyalar, torpaqların yağı düşmənin tapdağı altında qalması, qaçqınlıq, köçkünlük, milli qürurun sındırılmasına tuşlanmış humanitar yardımlar və s. kimi məsələlər romanın dərin qatlarından baş qaldırıb sanki oxucuya əl edir”[2]

Əsərdə milli şüurla bağlı maraqlı bir məqam var ki, Seyran Səxavət öz düşüncələrini Mirzə Fətəli Axundzadənin, Mirzə Ələkbər Sabirin, Hacı

---

[1]http: //www/memmedaraz.az/%Fmenu%3D200)

[2]Tağısoy Nizami. Milli yaddaş və yaddaşsızlığın morfologiyası, «Azərbaycan» jurnalı, 2007, № 11, s. 176

Zeynalabdin Tağıyevin nitqi ilə oxucuya çatdırır. Nizaminin, Nəsiminin, Natəvanın, Axundzadənin, Sabirin, Tağıyevin heykəlləri Füzulinin heykəli qarşısında mitinqə toplaşıb. Bütün heykəllər bir-bir xalqa müraciət edərək onları birliyə çağırır. Şərti-metaforik planda işlənmiş bu səhnədə heykəllərin nitqində tarixi gerçəkliyin və bugünün həqiqətləri öz əksini tapmışdır. Bunun özündə də yazıçı mövqeyini aydın əks etdirən xüsusiyyətlər duyulmaqdadır. Bütün heykəllər xalqa müraciət etdikdən sonra söz Hacı Zeynalabdin Tağıyevə verilir. Hacı: "Nöyüt quyuları fontan vuranda otuz-qırx metr göyə qalxır, vurur, vurur, yorulur. Amma söz fontan vurandan sonra min illərlə yaşayır",-deyərək söz dahilərinin önündə baş əydi. İzdiham-məmləkət boyda nəhəng bir orqanizm lərzəyə gəldi. Hacı baş əyən kimi izdiham da heykəllərin qarşısında diz çökdü, baş əydi. Adama elə gəldi ki, əyiləndə də millət məhz bu cür əyilməlidi. Bir Allahın, bir də sözün böyüklüyü qarşısında... Bu cür əyilən millətin başı həmişə uca olar, başqa cür əyilən millətin başı həmişə bəlalar çəkər. Hacını qəhər boğsa da, sözünə ara vermədi: Bütün bunları ona görə deyirəm ki, bir az ağıllı olun, maarifə yetişin, sahibi-şüur olun. Sahibi-şüur olmayan millət sahibi-məmləkət də ola bilməz. Sahibi-məmləkət olmayan da ya əcnəbilərin əlinə baxa-baxa qalar, ya da öz doğma haramzadalarının – hansı ki, ikisi də bir bezin qırağıdı".

Hacının sözlərində dərin bir müasirlik duyulur. Hacının amalı, məqsədi millətin şüurunu oyatmaq, onu öz məmləkətinin, torpağının, sözünün sahibi etmək idi. Əslində, bütün Azərbaycan maarifçiləri, o cümlədən, bu əsərin müəllifi də bu işin peşində, bu müqəddəs amalın uğrunda mücadilə edirdilər

Fəlsəfi ədəbiyyatlarda da göstərilir ki, millət kimi formalaşmaq üçün milli-mənəvi birlik, milli-ideoloji təfəkkür, milli şüurun formalaşması əsas şərtdir. Millətin bütün obyektiv əlamətləri milli özünüdərk kimi subyektiv əlamətlə tamamlandıqda millətin mövcudluğundan, onun fəaliyyətindən danışmaq olar. Bu mənada milli şüurun hələ də "kal olduğu", "yetişmədiyi", formalaşmadığı cəmiyyətdə hər cür naqisliklərin olması mümkündür və qarşısıalınmazdır.

İnsan cəmiyyəti ilə heyvanlar aləmi arasındakı uçurumları Seyran Səxavətin əsərlərindəki zoomorfik obrazların timsalında müşahidə etmək çətin deyil. Bu baxımdan yazıçının "İt intervüsü" hekayəsi sözün həqiqi mənasında fəlsəfi pritça təsiri bağışlayır. "İt intervüsü" hekayəsi bütövlükdə Azərbaycan nəsrində yeni və cəsarətli bədii tapıntıdır. Əsərdə "it dilini bilən" jurnalistlə it arasında gedən davamlı dialoqlarda "it həqiqəti" ilə "adam həqiqəti" arasındakı münasibətlər bütün çılpaqlığı ilə ortaya qoyulur. Və itin verdiyi cavablar insanın indiki durumunu, hardan hara gəldiyini, mənfi vərdişlərini, insan cəmiyyətinin faciə qarşısında dayandığını yumoristik dillə

gözlərimiz önündə canlandırır. Müxbirin “Adamlara münasibətiniz” sualına itin verdiyi cavablar oxucunu həm güldürür, həm də düşündürür. İt:“Adamlar qudurub” – deyə cavab verir.

- Axı qudurmaq it peşəsidir. İt qudurar, adam yox.

- Qudurmuş adam qudurmuş itdən min dəfə quduz olur. Biz itlər tək-tük quduruq. Siz isə...”[1]

B.Vahabzadə “Oxudum, heyran oldum” başlıqlı məqaləsində yazırdı: “Axı it düzünü deyir: itin əcdadı, doğrudan da, qurd idi. Bəs necə oldu ki, it öz qurd babasını inkar edib itə döndü? Bəli, insanlar qurdu yala öyrədib onun qurdluğunu, mərdliyini əlindən aldı. Düşündükcə adamı dəhşət götürür. Və bu sətirlərin arxasında çox məchullar məluma dönür. İkinci tərəfdən insanın quduzu itin quduzundan daha qorxulu deyilmi? Bir itin qudurması o qədər dəhşətli deyil, vay o günə ki, bütöv bir millət qudurub başqa bir millətin dədə-baba torpaqlarına sahib çıxa”[2].

Seyran Səxavət sosial-psixoloji təhlilin dərinliyi, bədii-psixoloji məqamları ilə oxucu auditoriyasını daim genişləndirməkdə, zənginləşdirmək-dədir. Sənət əsərinin psixoloji və bədii əhəmiyyətinin vacibliyini dərk edən müəllif əsərlərində dərin psixologizmə, psixoloji təhlilə geniş yer vermişdir.

III fəslin “**Şəxsiyyət, cəmiyyət və zaman konteksti”** adlı ikinci bölməsində Seyran Səxavət şəxsiyyət və zaman problemini izləmişdir.

Mühitlə barışa bilməyən insanın – şəxsiyyətin faciəsi mövzusuna dünya və Azərbaycan ədəbiyyatında dəfələrlə müraciət olunmuşdur. Avropa ədəbiyyatında Hötenin “Gənc Verterin iztirabları”, Jorj Sandın “İndiana”, Somerset Moemin “Həyatımın yekununda”, Şarlotta Brontenin “Ceyn Eyr”, Anna Brontenin “Qarlı aşırım”, Stefan Sfeyqin “Dünənin dünyası”, Cek Londonun “Martin İden”, Herman Hessenin “Demian”, Puşkinin “Dubrovski” kimi əsərləri buna nümunədir.

M.F.Axundzadənin “Aldanmış kəvakib” povestindəki Yusif Sərrac, N.Vəzirovun “Müsibəti-Fəxrəddin” faciəsindəki Fəxrəddin, Ə.Haqverdiyevin “Bəxtsiz cavan” faciəsindəki Fərhad, C.Məmmədquluzadənin “Ölülər” əsərindəki İsgəndər məhz bu cür – zaman və mühitin məngənəsində boğulan işıqlı insanların bədii obrazlarıdır. Əslində seçilmişlərdən olmaq – seçkin insan taleyi yaşamaq da alın yazısıdır. Fəqət istedadlı yazıçı Seyran Səxavətin “Persona non Qrata” əsərində sənət həqiqətinin, min illərin sınağından çıxmış qədim həyat həqiqətinə meydan oxuması, müəllifin yüksək vətəndaş və sənətkarlıq qayəsi ilə təsvir etdiyi hadisələrin fonunda gəldiyi qənaət, sözsüz

[1]Səxavət Seyran. Qızıl teşt. Bakı: Gənclik, 1999, s.760
[2]Vahabzadə Bəxtiyar. Oxudum, heyran oldum, “Ədəbiyyat qəzeti”, 29 sentyabr 2000, №38-39(3215-3216), s.2

ki, bir ədəbi hadisə kimi ictimai marağa səbəb olacaqdır. Lakin alın yazısının pozularaq yenidən yazılmasının yüksək sənətkarlıqla bədii ifadəsini verən Seyran Səxavət "Persona non Qrata" əsəri ilə gerçək həyatla keçirilməsi mümkün olmayan sədlərin mistik gedişlərlə dəf edilməsi və onun yaratdığı ünsiyyət, habelə, həmin ünsiyyətin yaratdığı psixoloji-dramatik situasiyalara nüfuz etmək baxımından dəyərli bir əsər yazmışdır.

Əsərin qəhrəmanı sakini olduğu yeni zaman və məkanda köhnə zaman və məkanın diqtəsi ilə yazılmış alın yazısı ilə yaşaya bilmir və gerçəkdən yaşadığı həyatda ömrünü davam etdirmək üçün alın yazısını pozmaq qərarına gəlir. Alın yazısı mistik mənada desək, bəxt-tale yazısıdır və onun həmin mənada pozulması qeyri-mümkündür. Maraqlı burasıdır ki, əsərin qəhrəmanının alın yazısı zorla yazıldığı kimi, zorla da pozulur. Fiziki mənada pozulmuş alın yazısının yerindən süzülən, tərkib etibarı ilə müxtəlif maddələrin məcmusundan ibarət olan, qanın yerinə onun qəlbinə damarlarına saflıq və duruluq rəmzi olan işıq seli axır və işıq seli ona yeni bir alın yazısı bəxş edir. Qəlbindən və damarlarından axan işıq seli işıqlı bir yola dönərək onu yeni və həqiqi alın yazısı olan bir uşaqla rastlaşdırır. Uşaq müəllifin son dərəcə uğurlu və həssas bir tapıntısı olaraq müstəqillliyimizin uşaqlığı kimi səciyyələndirilir. Uşaq vaxtilə elmi ateizmi təbliğ etməyə məcbur edilən, köhnə zaman və məkanda yaşamağa çətinlik çəkən babasının tərbiyə və təfəkkürünün ağır havasında ürəyi istəyən kimi nəfəs ala bilmir. O, özünün və məqsədinin saflığından yoğrulmuş ovqat arzusundadır. Elə uşağın bu arzusuna biganə qala bilməyən müəllif, sənət həqiqətinin xeyrinə min illərin həyat həqiqətinə qarşı inqilab etmişdir. Müəllifin qayəsi onun son dərəcə vətəndaşlıq qeyrətinə və Vətən sevgisinə əsaslanır. Uşaq təzəlikdir, uşaq saflıqdır! Müəllif bu təzəlik və saflıq fırçası ilə həyatın elə lövhələrini yaratmışdır ki, orada həyat ana bətnində olan uşaq kimi çabalayır. Təzəliyi və saflığı köhnəliyin, üfunətin ümidinə qoymaq olmaz. Köhnəlik və üfunət onun saf varlığında münbitlik qazanıb göbələk bitirər. Müəllif hadisələrin gərginliyində reallığı itirmir. Reallıq ondan ibarətdir ki, həyat həqiqətləri əsərdə qazandığı məziyyətlərlə ideallaşdırılmır, əksinə yazıçı təxəyyülündə daha qabarıq görünür.

Şəxsiyyət və mühit probleminin ən parlaq boyalarla işıqlandırılması baxımından Seyran Səxavətin əsərləri içərisində "Qaçhaqaç" romanı da xüsusi yer tutur. Roman müəllifin öz kəşməkəşli həyatından bəhs edir və müəyyən mənada avtobioqrafik səciyyə daşıyır. Romanda yazıçının içindən çıxdığı kənd mühitindən, ailəsindən, qohumlarından, doğma kəndi ilə bağlı uşaqlıq xatirələrindən, orta və ali məktəb illərindəki tələbə dostlarından – Azərbaycan ədəbiyyatının görkəmli şəxsiyyətlərinin həyatından, yazıçının keçirdiyi

sarsıntılardan, mühitlə barışa bilməməsindən, bu barışmazlıqdan dolayı üzləşdiyi hadisələrdən, iztirablarından və sevgisindən bəhs olunur. Son dərəcə oxunaqlı, axıcı, şirin, nağıl dilində, layla havasında yazılmış bu romanda bapbalaca kənd uşağı – Sarının bu qəliz dünyada özünü necə axtarmasından, tapmasından və təsdiq etməsindən söhbət açılır. Romanı oxuduqca biz yazıçının mənəvi dünyası ilə üzləşirik.

İnsan hər şeydən öncə fərddir, şəxsi, özünə xas xarakter özəllikləri ilə təkrarolunmazdır. Lakin o, eyni zamanda, mühitin yetirməsi, cəmiyyətin bir üzvüdür. İstər-istəməz ictimai duyğularla yaşayır, hadisələrə müdaxilə edir, yaşadığı cəmiyyətdə öz yerini tutmağa – özünütəsdiqə çalışır. Lakin arzularını gerçəkləşdirə bilmədikdə mühitə, zamana qarşı müxalifətdə durmağa məcbur olur. İnsan mühitin tələblərinə ağlı, zəkası ilə qarşı dura bilirsə, qalib gəlir, əks halda, uduzur.

Seçilmiş insanın – şəxsiyyətin hər hansı mühitə uyğunlaşmaması, yaşadığı məkana və zamana sığmaması təkcə bizim dövrümüzdə deyil, tarixin bütün mərhələlərində həllini tapmayan problem olmuşdur. Belə adamlar cəmiyyətin ayaqlaşdığı yaşam şərtlərinə uyğunlaşa bilməz, çərçivələri darmadağın edər.

Problemə idealist prizmadan yanaşan Hegel "təbiətə uyğunlaşmaq" prinsipini irəli sürürdü. Marks isə materialist mövqe sərgiləyərək "cəmiyyəti dəyişdirməyin" daha gərəkliliyini vurğulayırdı. Kamilləşən, müdrikləşən ali insanın bütün coğrafi məkanlardan və zamandan yüksəkdə dayanması" prinsipini irəli sürən sufilər problemə hər cür baxış prizmalarının fövqündə duran ali mövqedən – kamil mənəviyyat tribunasından çıxış edirdilər.

Professor Yaşar Qarayev cəmiyyətlə bədii ədəbiyyat arasındakı əlaqələrdə insan amilinə, şəxsiyyətə xüsusi dəyər verərək, şəxsiyyəti bütövlükdə millətin müqəddəratını, varlığını həll edən, müəyyənləşdirən əsas tərkib kimi obrazlı şəkildə aşağıdakı kimi qələmə verirdi: "Meyar şəxsiyyətdir. Şəxsiyyət yoxdursa, "mən", milliyyət yoxdursa, xalq yoxdur... "Mənəm haqq!", yoxsa... "mən və haqq!". Məncə, "mənəm haqq!". Təsadüfi deyil ki, bizim klassik milli fəlsəfi fikir "mən"i və haqqı, insanı və vicdanı, şəxsiyyəti və idrakı bir-birindən ayırmır. Hətta Tanrı da burada "mən"in hüsnündə, şəxsiyyətin cismində təzahür edir".[1]

Fikirlərimizi belə ümumiləşdirə bilərik ki, şəxsiyyət və mühit probleminin həlli Seyran Səxavət yaradıcılığında fərdi və ümumi xüsusiyyətlərin dərki baxımından maraq doğurur. Və yazıçı böyük həssaslıqla dünya – insan – zaman – tale müstəvisində problemin bədii həllinə çalışır.

---

[1] Qarayev Y. Meyar- şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, s.11.

Dissertasiyanın **Nəticə hissəsi**ndə əldə olunmuş elmi müddəalar ümumiləşdirilmişdir.

**Tədqiqatın əsas məzmunu və müddəaları aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:**

1. Seyran Səxavət haqqında Söz. "Filologiya məsələri" jurnalı, №6, Bakı, "Elm və təhsil", 2012, s.542-548.
2. Seyran Səxavətin nəsrinə bir baxış. Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları, Bakı, 18-19 dekabr, 2012, s.336-337
3. Postmodernizm ədəbi cərəyanı: əsas prinsipləri və təzahür formaları. Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində "Postmodern dövrdə milli özünüdərk" bölməsinin materialları, Bakı, 31 oktyabr – 1 noyabr 2013, s.144-147
4. Şərti-metaforik üslubun bədii imkanları."Filologiya məsələri" jurnalı, №2, Bakı, "Elm və təhsil", 2013, s.404-414
5. Hüseyn Cavid ənənələri və çağdaş Azərbaycan ədəbiyyatında milli düşüncə problemi. Türk dünyasını işıqlandıranlar: Mehmet Akif Ersoy və Hüseyn Cavid Beynəlxalq konfransının materialları, Bakı, 31 may 2013, s.304-314
6. Seyran Səxavətin "Nekroloq" romanında sosial-psixoloji problemlər. Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş Filologiyanın aktual problemləri mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 8 may 2013, s.166-170
7. Azərbaycan ədəbiyyatında milli özünüdərk problemi. Gənc tədqiqatçıların I Beynəlxalq Elmi konfransının materialları, Bakı, 26-27 aprel, 2013, s.438
8. Dilin obrazlılığı və obrazların dili. Bəkir Çobanzadənin 120 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları, Bakı, 31 may, 2013, s.303-308
9. İnsan və cəmiyyət mənəvi-əxlaqi axtarışlar müstəvisində. Bakı Universiteti xəbərləri №4, Bakı, Bakı Universiteti nəşriyyatı, 2013, s.39-47
10. Səsin və sözün möcüzəsi. VII Beynəlxalq türk mədəniyyəti, incəsənəti və mədəni irsinin mühafizəsi simpoziumu, Bakı 2013, s.125-126
11. Sesin ve sözün möcüzesi. VII Uluslararası Türk kültürü, sanatı v kültürel mirası koruma sempozyumu, 26-29.06.2013, s.965-971

12. Müasir romanda rəmzi-alleqorik obrazların özəlliklərinə dair. “Dil və ədəbiyyat” Beynəlxalq elmi-nəzəri jurnal, №2 (86), Bakı, 2013, s.232-238
13. Avtobioqrafik roman sənətkar taleyinin bədii ifadəsi kimi. Elmi xəbərlər, Azərbaycan Dillər Universiteti, №3, Bakı 2013, s.286-290
14. Seyran Səxavətin nəsrində bədii portretə dair. Dil və ədəbiyyat, Azərbaycan Dillər Universiteti, Bakı 2013, № 4, s.215-221
15. Seyran Səxavətin psixologizmə dair. Dil və ədəbiyyat” Benəlxalq elmi-nəzəri jurnal, №4 (88), Bakı, 2013, s.244-247
16. Seyran Səxavətin bədii nəsrində portret və psixologizm. Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları, Bakı, 19-20 dekabr, 2013, s.40-41
17. Satirik sözün gücü. Firidun bəy Köçərlinin 150 illik yubileyinə həsr olunmuş respublika elmi konfransının materialları, Bakı, 25-26 noyabr, 2013,s.72-77
18. Müasir Azərbaycan nəsrində postmodernist estetikanın izlərinə dair (Seyran Səxavətin bədii nəsri əsasında). Gənc tədqiqatçıların II Beynəlxalq Elmi konfransının materialları, Bakı, 18-19 aprel, 2014, s.314-315
19. Bədii nəsrdə şəxsiyyət və mənəvi təkamül məsələsi (Seyran Səxavətin “Qapıların o üzündə qalan dünya” povesti əsasında). İlyas Əfəndiyevin 100 illik yubileyinə həsr olunmuş respublika elmi konfransının materialları, Bakı, 2013, s.442-452
20. Seçilmişin faciəsi və ya bədii nəsrdə avtobioqrafizm. Bakı Dövlət Universitetinin yaranmasının 95 illik yuileyinə həsr olunmuş Azərbaycan filologiyasının aktual məsələləri mövzusunda Respublika elmi konfransının materialları, s.115-123
21. Şəxsiyyət zamanın və mühitin məngənəsində. Gənc tədqiqatçıların II Beynəlxalq Elmi konfransının materialları, Bakı, 2015, s.1031-1032
22. Kiçik epizodlarda böyük həqiqətlər (Seyran Səxavətin “İt intervüsü” hekayəsi əsasında). Xarici dillərin tədrisinin aktual problemləri Respublika elmi-praktik konfransının materialları, Bakı 4-5 may, 2015, s.331-335
23. Millilikdən bəşəriliyə və ya gerçəkliyin şərti simvolikası. “Dil və ədəbiyyat” Beynəlxalq elmi-nəzəri jurnal, №1 (93), Bakı, 2015, s.256-263
24. Самобытность художественной прозы выдающегося азербайджанского писателя Сейрана Сахавата // Національний

педагогічний університет імени М.П.Драгоманова. Гілея (Науковий вісник), Випуск 80 (№ 1), Київ, 2014, с.197-200
25. Seyran Səxavətin nəsrində şəxsiyyətin mənəvi ekologiyasına dair. Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları, Bakı, 7-8 aprel, 2015,s.167-170
26. Sözün halal övladı. “Ədəbiyyat” qəzeti, 9 may 2015, s.9
27. Seçilmişin faciəsi. Seyran Səxavət Seçilməmiş əsərləri I cildinə ön söz, Bakı, Renessans – A, 2015, s.15-32
28. Alnına yazılanları kağıza köçürən Adam... Seyran Səxavət Seçilməmiş əsərləri II cildinə ön söz, Bakı, Renessans –A, 2015, 488s., s.5-7
29. Qapı. Seyran Səxavət “Qaçhaqaç” romanı, II cildə ön söz, Bakı, Vektor, 2016, 462s., s.5-10
30. Seyrandan Səxavətlə, “Ulduz” jurnalı, 2016, №3, s.20-25

**Эфендиева Хаяла Зарраб гызы**

# Социально-психологические и духовно-нравственные поиски в художественной прозе Сейрана Сахавата

## Резюме

Диссертация посвящена творчеству выдающегося представителя современной азербайджанской литературы Сейрана Сахавата. Работа состоит из «Введения», трёх глав, «Заключения» и списка использованной литературы.

Во «Введении» обосновываются актуальность темы, научная новизна, теоретическая и практическая значимость работы; даются сведения об объекте, предмете, целях, задачах, научно-методологической основе исследования, о степени разработанности вопроса, об апробации и структуре диссертации.

В первой главе диссертации «Литературная среда и позиция писателя» речь идёт о месте Сейрана Сахавата в современной азербайджанской прозе, сформировавшейся и развивавшейся на основе самых прогрессивных традиций азербайджанской и мировой литературы. Отмечаются заслуги писателя в формировании литературно-художественной, философско-эстетической и национальной мысли в современной азербайджанской литературе.

Данная глава состоит из двух подглав. В первой подглаве «Первые шаги: поиски, находки художественного новшества» говорится о литературной среде, сформировавшей Сейрана Сахавата как писателя, о его художественных поисках. Вторая подглава «Образность языка – язык образов» посвящена языку художественной прозы и стилю Сейрана Сахавата, его взглядам на художественную форму и мастерство.

В этой главе творчество Сейрана Сахавата исследуется наряду с современным литературным процессом, поисками писателя. Особо отмечаются первые творческие удачи писателя, оригинальность его художественного языка.

Вторая глава диссертации «Социально-психологические проблемы и художественная правда» состоит из трёх подглав. В первой подглаве «Художественное отражение действительности в условно-метафорических формах» на основе художественного текста романа

Сейрана Сахавата «Некролог» анализируются отражение прозы писателя в условно- метафорическом плане, её национально-человеческие особенности, единство реальности и художественности. Во второй подглаве «От национального к общечеловеческому...» на основе научно-теоретического анализа произведения С.Сахавата «Еврейский алфавит» рассматриваются национальные, народные и общечеловеческие особенности творчества писателя. В частности, отмечается, что в его произведениях национальное выступает не только как составная часть общечеловеческого, но и как одно из средств духовно-психологического выражения образов.

В третьей подглаве «Гармония реальности и художественного воображения» в контексте анализа повести «Золотая клетка» речь идёт о трагедиях, бедах азербайджанского народа в период советской колонизации, нашедших своё художественное воплощение в живых, неповторимых человеческих характерах.

Третья глава диссертации «Человек и общество в свете духовно-нравственных поисков» состоит из двух подглав. В первой подглаве «Самосознание человека: проблема национально-духовной памяти» на основе научно-теоретического анализа произведений С.Сахавата «Повод», «Мир по ту сторону ворот», «Бремя материнства», «Влюблённый в свет», «Боль» и др. обобщаются основы художественного самосознания писателя, затрагиваются такие проблемы, как общественное сознание, национальное сознание, национально-историческая память и др.

Вторая подглава «Контекст личности, общества и времени» посвящена проблемам личности и общества. Здесь речь идёт о духовно-этических поисках писателя, о трагедии избранной личности, о причинах зажатости личности в контексте времени и среды.

В «Заключении» обобщаются основные результаты и выводы исследования.

**Efendiyeva Khayala Zarrab gizi**

## The social-psychological and mental-moral quest in Seyran Sahavat's artistic prose

Summary

The dissertation deals with the outstanding representative of the modern Azerbaijani literature Seyran Sahavat's creation. The work consists of "Introduction", three chapters, "Conclusion" and list of references.

The "Introduction" contains the substantiation of the urgency of the theme, scientific novelty, theoretical and practical significance of the work, the information about the object, subject, purpose, tasks, scientific-methodological basis of the research, about the degree of elaboration of the problem, about the appraisal and structure of the dissertation.

The first chapter of the dissertation "The literary environment and writer's position" is about Seyran Sahavat's place in the modern Azerbaijani prose formed and developed on the basis of the most progressive traditions of the world and Azerbaijani literature.

The writer's services to formation of the literary-artistic, philosophical-aesthetic and national ideas in the modern Azerbaijani literature are noted.

The chapter consists of two subchapters. The first subchapter "The first steps: quest, finds of the artistic novelty" is about the literary environment that formed Seyran Sahavat as a writer, about his artistic quest. The second subchapter "The imagery of the language – the language of characters" deals with the language of Seyran Sahavat's artistic prose and style, his views of the artistic forms and skill. S. Sahavat's creation is researched with the modern literary processand, his quest in this chapter. The writer's first artistic achievements, originality of his artistic language are emphasized.

The second chapter of the dissertation "The social- psychological problems and artistic truth" consists of three subchapters. The first subchapter "The artistic reflection of the reality in the conventional-metaphorical forms" contains the analysis of the reflection of the writer's prose in the conditional-metaphorical plan, its national-human peculiarities, unity of the reality and artistry on the basis of the artistic text of Seyran Sahavat's novel "The obituary notice". The second subchapter "From the national to the human..." deals with the research of the national and human peculiarities of the writer's

creation on the basis of the scientific- theoretical analysis of his work "The Jewish alphabet".

It is emphasized that the national is not only a constituent part of the human but also is means of mental- psychological expression of characters in his works. The third subchapter "Harmony of the reality and artistic imagination" is about the Azerbaijani people's tragedies, disasters during the period of the Soviet colonization reflected in the lively, unique human characters. Such research is carried out in the context of the analysis of the writer's narrative "The gold cage".

The third chapter of the dissertation "A person and society in the light of the mental – moral quest" consists of two subchapters.

The first subchapter " A person's self-consciousness: the problem of the national-mental memory" contains the scientific-theoretical analysis of S.Sahavat's works "The cause", "The world beyond the gate", "The burden of motherhood", "Fallen in love with the light", "The pain" and others. The writer's principles of the artistic self-consciousness are generalized on the basis of this analysis. Such problems as social mentality, national mentality, national-historical memory etc. are also considered in this subchapter.

The second subchapter "The context of a person, society and time" deals with the problems of a person and society. This subchapter is about the writer's quest, the chosen person's tragedy, about the reasons of a person's restraint in the context of the time and environment.

The "Conclusion" contains the generalization of the main results of the research.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ЭФЕНДИЕВА ХАЯЛА ЗАРРАБ гызы**

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ И ДУХОВНО-НРАВСТВЕННЫЕ ПОИСКИ В ХУДОЖЕСТВЕННОЙ ПРОЗЕ СЕЙРАНА САХАВАТА

**5716.01 – Азербайджанская литература**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по филологии**

**БАКУ – 2016**